“Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi” PHŞ-nin

2022-ci il audit edilmiş maliyyə hesabatlarının qısa icmalı

Dövlət Müfəttişliyinin gəlirləri əsasən aviasiya təhlükəsizliyi xidmətindən formalaşır və 2022-ci ildə bu sahədə görülən tədbirlər nəticəsində gəlirlər 2021-ci illə müqayisədə 35% artaraq **5 412 min manata** çatmışdır. Gəlirlərdəki kəskin artıma baxmayaraq 2022-ci ilin xərcləri ötən illə müqayisədə cəmi 11% artmışdır və **3 811 min manat** təşkil etmişdir. Baş verən müsbət tendensiyanın nəticəsi olaraq Dövlət Müfəttişliyinin mənfəəti 2 dəfəyə yaxın artaraq **927 min manata** çatmışdır.

Dövlət Müfəttişliyinin əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri 2022-ci il üzrə **3 666 min manat** təşkil etmişdir (Həmin məbləğ 2021-ci ildə **482 min manat** olmuşdur). Ümumilikdə Dövlət Müfəttişliyinin 2022-ci ilin sonuna pul vəsaitlərinin vəziyyəti ötən illə müqayisədə 3 dəfə artaraq **4 961 min manat** olmuşdur. (Həmin məbləğ 2021-ci ildə **1 324 min manat** olmuşdur).